*UOT159.9*

***Solmaz Qüdrət qızı Həsənli***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*https://orcid.org/0000-0001-5931-482X*
https://doi.org/10.69682/arti.2024.91(4).140-144

# İSTEDADLI UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA PSİXOLOJİ RƏHBƏRLİYİN ROLU

***Солмаз Гудрат гызы Гасанлы***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике,*

# РОЛЬ ПСИХОЛОГИЧЕСКОГО РУКОВОДСТВА В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ОДАРЕННЫХ ДЕТЕЙ

***Solmaz Gudrat Hasanli***
*associate professor at*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# THE ROLE OF PSYCHOLOGICAL GUIDANCE IN THE FORMATION OF THE PERSONALITY OF GIFTED CHILDREN

**Xülasə.** Günümüzdə psixoloji yardım fəaliyyətlərini istedadlı uşaqların ehtiyaclarına uyğun şəkildə həyata keçirən, eyni zamanda valideyn və müəllimlərlə səmərəli işbirliyi quran praktik psixoloqlara daha çox ehtiyac hiss edilir. İstedadlı uşaqların şəxsi, pedaqoji, peşəseçimi məsələlərinə psixoloji yardım ehtiyaclarını təmin etmək onlarda özünəhörmət və özünəgüvən hissinin formalaşmasına, özlərini dərk etmələrinə, uğurlu sosial münasibətlərin qurulmasına, təhsil və peşəseçimində doğru istiqamətə yönlənmələrinə təsir edəcəkdir. Məqalədə bu baxımdan praktik psixoloqların istedadlı uşaqların bir şəxsiyyət kimi formalaşmasında rolu və önəmindən bəhs edilmişdir.
***Açar sözlər:*** *istedadlı uşaqlar, psixoloji xidmət, şəxsiyyətin formalaşması, sosial inkişaf.*

**Аннотация**. Сегодня более востребованы практические психологи, которые осуществляют деятельность по психологической помощи в соответствии с потребностями одаренных детей и при этом налаживают эффективное сотрудничество с родителями и педагогами. Обеспечение потребности одаренных детей в психологической помощи по вопросам личностно-педагогического и профессионального выбора повлияет на формирование у них самооценки и уверенности в себе, их самосознание, установление успешных социальных связей, ориентацию в правильном направлении. в образовании и выборе карьеры. В связи с этим в статье обсуждается роль и значение практических психологов в формировании одаренных детей как личности.
***Ключевые слова:*** *одаренные дети, психологическая служба, формирование личности, социальное развитие.*

**Abstract.** Today, practical psychologists who carry out psychological assistance activities in accordance with the needs of gifted children, and at the same time establish effective cooperation with parents and teachers, are more needed. Providing the psychological assistance needs of gifted children for personal, pedagogical and career choice issues will affect the formation of self-esteem and self-confidence in them, their self-awareness, the establishment of successful social relations, and their orientation in the right direction in education and career choice. In this regard, the role and importance of practical psychologists in the formation of gifted children as a personality is discussed in the article.
***Keywords:*** *gifted children, psychological service, personality formation, social development.*

İstedadlı uşaqların sosial mühitdə itmələrinə mane olmaq, inkişaf və uyğunlaşmalarına yardım etmək üçün onlara yüksək səviyyədə psixoloji rəhbərlik xidməti göstərilməlidir. Bu baxımdan, öncə istedadlı uşaqların kim olduqları, necə öyrəndikləri, pedaqoji-psixoloji ehtiyaclarının nələr olduğuna diqqət etmək lazımdır. Çünki çox zaman ailələr və pedaqoqlar istedadlı uşaqların ehtiyaclarını bilmirlər və buna uyğun olaraq fəaliyyətləri planlaşdırmaqda çətinlik çəkir, ya da yanlış fəaliyyət planı tərtib edir və bəzən hətta bir plana belə ehtiyac duymurlar.

Ə. Əlizadə haqlı olaraq istedadlı uşaqların toplum üçün dəyərini ifadə edərək yazırdı: "İstedadlı uşaq milli sərvətdir. Ölkənin sosial-iqtisadi inkişafının vüsəti bilavasitə istedadlı uşaq problemi ilə bağlıdır. Bu problemin aktuallığı istər inkişaf etmiş, istərsə də inkişaf etməmiş ölkələrdə nəzəri-metodoloji ölçülərlə dəyərləndirilir" (1, s. 8).

İstedadlı uşaqların ehtiyaclarına diqqət yetirilməzsə qabiliyyət və maraqlarını yetərli səviyyədə inkişaf etdirmək mümkün olmaz. İstedadının fərqində olmayan şagird doğru istiqamətə yönlənməz və özünütəsdiq problemi yaşayar. Bu baxımdan hər hansı bir təhsil səviyyəsində istedadlı uşaq, yeniyetmə və gənclər üçün həyata keçirilən psixoloji yardım xidmətləri önəmlidir. Günümüzdə psixoloji yardım fəaliyyətlərini istedadlı uşaqların ehtiyaclarına uyğun şəkildə həyata keçirən, eyni zamanda valideyn və müəllimlərlə səmərəli işbirliyi quran praktik psixoloqlara daha çox ehtiyac hiss edilir.

İstedadlı uşaqların şəxsi, pedaqoji, peşəseçimi məsələlərində psixoloji yardım ehtiyaclarını təmin etmək onlara özünəhörmət və özgüvən hissinin formalaşması və bu hissin qorunmasına, müsbət özünüdərkinə, uğurlu sosial münasibətlərin qurulmasına, təhsil və əmək fəaliyyətlərində doğru istiqamətə yönlənmələrinə təsir edəcəkdir.

İstedadlı uşaqların həddən artıq həssas olmaları onların emosional təzad yaşamalarına səbəb olur. Bu uşaqlara yetərli səviyyədə psixoloji rəhbərlik xidmətləri olmadıqda sosial təzyiq, asosiallılıq, üsyankarlıq, aqressivlik, depressiya, hətta intihar kimi problemlər ortaya çıxa bilər. Psixoloqların əsas vəzifələrindən biri bu şagirdlərin nə hiss etdiklərini doğru təhlil etmək və onları narahat edən durumları ortaya çıxarmaqdır. Eyni zamanda, psixoloq istedadlı uşaqların öz istedadlarının fərqində olmalarına imkan yaradan tədbirlər həyata keçirməli, boş zamanlarını dəyərləndirmək üçün inkişafetdirici fəaliyyətlər təşkil etməli, istedadlı şagirdlərin peşəseçimi hədəflərinin müəyyənləşdirilməsində, təhsil imkanlarını gərəkli səviyyədə dəyərləndirə bilməsində, şəxsi mövzularda emosional baxımdan dəstəklənməsində yardım fəaliyyətləri reallaşdırılmalıdır.

Psixoloji xidmətin əsas məqsədi, şagirdlərin inkişaf və uyğunlaşmasına yardım edərək onların hər potensiallarını sonuna qədər inkişaf etdirə bilmələri və daha faydalı, səmərəli fəaliyyətlərini təmin edən müsbət psixo-emosional səviyyəyə çata bilməsidir. Normal bir inkişaf prosesində bütün şagirdlər öncə özlərini tanıyır, sonra özlərini anlayır, qəbul edir, çevrələrini tanıyır, olduğu çevrədə hansı fəaliyyətləri göstərə biləcəklərini kəşf edirlər və son olaraq özlərini olduqları mühitdə təsdiqə yönəlirlər. Bir çox hallarda istedadlı şagirdlər özlərini tanıma və qəbul etmədə, fərqli olmalarından dolayı mühitə uyğunlaşmada problemlərlə qarşılaşırlar. İstedadlı uşaqlara, yeniyetmə və gənclərə psixoloji rəhbərliyin əsil məqsədi bu problemləri azaltmaq və şagirdlərin uyğunlaşmasını, inkişafını dəstəkləməkdir. Çünki ancaq bu şərtlərdə istedadlı şagirdlər öz inkişafları üçün geniş imkanlara sahib olur, özlərini ifadə və təsdiq edirlər. Təbii ki, potensial imkanlarının fərqində olmayan insan doğru istiqamətə yönələ bilməz və özünü təsdiq etmək imkanına sahib olmaz.

İstedadlı şagirdlər sadəcə zehni deyil, emosional baxımdan da yaşıdlarından fərqli olaraq yüksək inkişaf səviyyəsinə sahibdirlər. Məktəbdə psixoloji rəhbərlik xidmətləri istedadlı şagirdlər üçün məktəbəqədər yaş dövründən başlanılmalı və təhsilin hər pilləsində davam etməlidir. Pedaqoji prosesdə şagirdlərin fərdi, sosial inkişaf ehtiyaclarını təmin etmək və beləliklə onların şəxsiyyətinin inkişafına və uyğunlaşmalarına yardım məqsədilə aparılan psixoloji rəhbərlik xidmətləri fərdi rəhbərlik xidmətləridir. Bu xidmətlərdən önəmli olan şagirdin özünü və başqalarını anlaması, hiss və davranışlarının fərqində olması, özünü və başqalarını qəbul etməsi, gündəlik həyatı üçün gərəkli olan bacarıqları qazanması, ailə və toplumdakı hadisələri dərk edərək bu mühitdə sağlam münasibətlər qura bilməsi üçün dəstək olmaqdır. İstedadlı şa-

girdlərin sosial inkişafla bağlı olan əsas ehtiyacları bunlardır:

- Güclü və zəif tərəflərini anlaya bilmək.
- Özünü qəbul etmək və sərhədlərini tanımaq.
- Qabiliyyətlərini inkişaf etdirmək.
- Daxili nəzarət mexanizmini inkişaf etdirmək.
- Təcrübələrindən öyrənərək yanlışlarını qəbul etmək.
- Problem həll etmək bacarıqlarından istifadə etmək.
- İnsanlarla münasibətlərində olan problemi həll etmək.
- Digər insanları anlama hissini inkişaf etdirmək.
- Ünsiyyət bacarıqlarını inkişaf etdirmək (özünü tanımaq, özünü ifadə etmək, səmərəli dinləmək, empatiya qurmaq, xoşniyyətli və tənqidlərə açıq olmaq, bədən dili, göz ünsiyyəti, xitab, səs tonu və s. lazımi səviyyədə istifadə etmək).
- Özgüvən hissinə sahib olmaq.
- Liderlik xüsusiyyətlərini inkişaf etdirmək.
- Stressi azaltma texnologiyalarını bilmək.
- Yaşıdlarıyla normal ünsiyyət qurmaq.
- Uğursuzluqla qarşılaşdıqda yenidən səy göstərmək bacarığına sahib olmaq.
- İdarə edilməkdən çox rəhbərlik etməyə yönəlmək.
- Özlərinə qarşı dürüst və açıq olmaq.
- İstedad və maraqları istiqamətində fərqli təhsil imkanlarından faydalanmaq.
- Araşdırmalara meyl göstərmək. (Silverman, 1993).

Mütəxəssislərə görə, istedadlı uşaqlar sosial və emosional uyğunlaşma səviyyəsi yüksək, üst səviyyədə daxili və xarici enerjiyə, geniş təxəyyül gücünə sahib, daha müstəqil, həmyaşıd fikirlərinə daha az tabe olan, daha dominant, təsirli və rəqabətçi, yüksək səviyyədə dinamik, diqqətli, hər şeyə maraq göstərən, öyrənməkdən zövq alan uşaqlardır. Bu xüsusiyyətlərin özü ilə bərabər gətirdiyi bəzi problemlər isə bunlardır:

1. Fərqli hiss etmək və qəbul edilməmək, ailələri, müəllimləri, yoldaşlarının onlardan yüksək gözləntilərə sahib olması.
2. Məktəbdə darıxmaları, normal şagirdlərin əhatəsində olmasının onu əsəbiləşdirməsi.
3. Sadəcə bir neçə yaşıdının onları anlaya bilməsi.
4. Peşə seçimi zamanı özlərini emosional böhranda hiss etmələri.
5. Dünyada baş verən hadisələrlə bağlı narahatlıq hissi keçirmələri və problemlərin həll edilməsində yardım edə bilməyəcəklərini hiss etmələri.
6. Bəzi istedadlı uşaqların mühitdən təcrid olunduqlarını hiss etmələri, yoldaşlarına uyğunlaşmaq üçün istedadlarını gizlətmələri, digər insanlara qarşı dözümlü olmamaları.
7. Rutin, hər gün təkrarlanan işləri rədd etmələri, rəhbərliyə qarşı çıxmaları, yüksək anksiyetə hissi yaşamaları, tənqidə açıq olmamaları, motivasiyanın aşağı səviyyədə olması və depressiv olmaları (Silverman,1993).

Bu problemlər daha çox digər insanların onlara uyğun olmayan yanaşmasından meydana gəlir. Xüsusilə bu uşaqlar məktəb mühitində psixo-sosial problemlər yaşamaq baxımından ciddi risk altındadırlar. Araşdırmalar bu uşaqların problemlərinin yuxarı yaşlarda da davam etdiyini göstərir. Bu problemlər mənlik şüurunun inkişafında çatışmamazlıqlar, mükəmməlliyyətçilik, yüksək uğur arzusu, yaşıdlarla ünsiyyətdə problem, peşəseçimində çətinlik, sosial baxımdan qeyri-adi davranışlar və məktəbə uyğunlaşmamaq kimi göstərilə bilər. Bu problemlərin yaşanmaması üçün istedadlı uşaqların emosional ehtiyaclarına cavab verilməsi, sosial və emosional inkişaf mərhələlərindəki çatışmamazlıqların qarşısının alınması və ya aradan qaldırılması üçün psixo-sosial tədbirlərin həyata keçirilməsi vacibdir.

Məktəbəqədər yaş dövründən ali təhsilə qədər istedadlı uşaqların sosial-psixoloji və emosional baxımdan özlərinə nəzarət edə biləcək güclü insanlar kimi formalaşdırmaq üçün həyata keçirilən psixoloji rəhbərlik fəaliyyətləri bunlardır:

1. Güvən yaratmaq. Məktəbdə istedadlı uşaqlarla qurulan problemsiz, açıq, real, səmimi, eyni zamanda sərhədləri məlum olan münasibətlər onlarda güvən hissini formalaşdırır. Məktəbin, müəllimlərin istedadlı uşaqların ehtiyaclarını anlaya biləcək və bu ehtiyaca cavab verə biləcək səviyyədə bilgili olmaları nəticəsində onlar-

da güvən hissi formalaşdırılır. Bu səbəblə istedadlı uşaqlar mövzusunda məktəbin belə uşaqlara xüsusi yanaşma tərzi, psixoloji rəhbərlik anlayışı və nəzarət mexanizmi, müəllimlərin isə bilgisi və peşə qabiliyyətləri olmalıdır.

2. Məktəb mühitini sevdirmək. İstedadlı şagirdlərə məktəb mühitini sevdirmək üçün məktəbi, müəllimi tanıtma fəaliyyətləri valideynlər tərəfindən həyata keçirilir. Uşağın gözündə məktəbi cazibədar vəziyyətə gətirmək məqsədilə şişirdilmiş, real olmayan, gözlənti səviyyəsini artıracaq bilgilər uşağa verilməməlidir. Real məlumatlar verilərsə bu hiss məktəbə uyğunlaşmanı asanlaşdıracaqdır. Əks halda valideynin ilk mənfi təsirdən məktəbə qarşı günahlandırma mövqeyində olması, uşağın yanında bu vəziyyəti təhlil etməsi uyğunlaşmanı çətinləşdirəcəkdir. Uşağın məktəbi sevməsini təmin edəcək ən önəmli amil məktəbdə uşağın marağına səbəb olan, diqqətini çəkən fəaliyyətlərin olmasıdır. Seçilən məktəb zənginləşdirilmiş və fərdiləşdirilmiş təhsil proqramına sahib olmazsa bir müddət sonra şagirdin marağı itəcək, ehtiyacları təmin olunmadığı üçün onun məktəbdən soyumasına yol açacaqdır. Son nəticədə isə valideynlər məktəbi dəyişdirməyə məcbur olacaq, bir çox hallarda isə məktəb-məktəb gəzməyə başlayacaqlar.

3. İnkişafı müşahidə etmək, qeydlər aparmaq və dəyərləndirmək. İstedadlı şagirdlərin inkişafı ilə bağlı qeydlər böyük önəm daşıyır. Çünki onların inkişafları çox sürətli xarakter daşıyır. İstedadlı şagirdlərdə hər hansı sahəsinin hansı inkişaf səviyyəsində olduğunun öyrənilməsi inkişaf sahələri arasındakı ziddiyyəti azaldacaq və həyata keçirilən fəaliyyətlərdə də bu cəhətlərə diqqət ediləcəkdir. Həyata keçirilən fəaliyyətlərin qeydə alınması məktəbdə psixoloqlar dəyişsə də bilgilərin bir sonrakı psixoloqa ötürülməsi hər dəfə məlumatların yenidən toplanmasının qarşısını alacaqdır. Qeydlər dəyərləndirmə aparılması və fəaliyyətlərin səmərəli olub-olmamasına nəzarət baxımından da önəmlidir. Eyni zamanda şagirdin peşəseçimində bu qeydlərə əsasən daha sağlam seçimlər həyata keçirilə bilər.

4. Valideynlə işbirliyinin həyata keçirilməsi. Valideyn iclasları, məktəbdə keçirilən açıq qapı günləri, valideynlər üçün seminarlar valideyn və müəllim arasında işbirliyini artırma məqsədi daşıyan fəaliyyətlərdir. İstedadlı uşaqların səmərəli pedaqoji təsirə məruz qalması üçün bu işbirliyi vacibdir. İstedadlı şagirdlərlə bağlı ortaq düşüncə, hiss və davranış formalaşdıran valideyn və müəllimlərin uşaqlara pedaqoji təsiri səmərəli olur. Ölkənin gələcəyində istedadlı şagirdlərin dəyəri baxımından bu işbirliyi önəmlidir.

5. Uşağın həyatındakı önəmli dəyişmələrə onu hazırlamaq. İstedadlı şagirdlər sürətlə inkişaf etdikləri üçün yaşayacaqları inkişaf mərhələləri haqqında onlara bilgi verilməlidir. İstedadlı uşaqlar inkişaf mərhələlərində bəzi həyat hadisələrinə münasibətdə daha həssas olduqlarından onlara və ailələrinə dəstək olmaq lazımdır. Bu baxımdan məktəb psixoloqunun üzərinə böyük məsuliyyət düşür.

6. Psixo-sosial inkişafa uyğun sinif mühitinin yaradılması. Şagirdin zehni, emosional və sosial ehtiyaclarını təmin edəcək sinif mühitinin yaradılması vacibdir. Məktəbdə sosial fəaliyyətlərdə istedadlı və normal şagirdlərin işbirliyi içində olmaları, qarşısındakı digər uşaqları qəbul etmələri, empatiya qurmaları təmin edilməlidir. Digər tərəfdən məktəbdə təşkil edilən və istedadlı şagirdlərin inkişafına xüsusi təsiri olan dərnəklərdə onlar özlərinə yaxın xüsusiyyət daşıyan və digər istedadlı şagirdlərlə daha yaxşı münasibətlər qura bilirlər. Eyni zamanda bir çox hallarda istedadlı şagirdlərin bir üst sinfə keçirilməsi də onlar üçün sağlam bir sinif mühitinin təmin edilməsində faydalıdır.

7. Uşağın öz maraq və istedadının fərqinə varması və bu istiqamətdə həyata keçirilən fəaliyyətlərdə iştirak etmək. Qabiliyyətlərin psixodiaqnostik metodlarla aşkara çıxarılması, uyğun qabiliyyətə görə tədbirlərin həyata keçirilməsi və eyni zamanda peşəseçiminə yardım edilməsi önəmlidir. Şagirdlərin maraqları istiqamətində dərnəklərdə fəaliyyət göstərmələri də bu baxımdan faydalıdır.

**Problemin aktuallığı.** Toplum olaraq istedadlı uşaq, yeniyetmə və gənclərin potensial imkanlarının ortaya çıxarılması, onların istedadları doğrultusunda yönləndirilməsi əsas vəzifələrdən biridir. Belə ki, istedad toplumların sərvəti sayılacaq səviyyədə dəyərə sahibdir. Bu dəyərlərin topluma qazandırılması işində isə bu gün praktik psixoloqların üzərinə böyük məsuliyyət düşür.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, istedadlı uşaqların şəxsiyyətinin formalaşmasında

psixoloji rəhbərliyin təhlili verilmiş, elmi mənbələrə əsasən ümumiləşdirmələr aparılmış və problemlə bağlı elmi yanaşmalar irəli sürülmüşdür.

Məqalədə irəli sürülən fikir və mülahizələrdən məktəb psixoloqları, pedaqoqlar, valideynlər, ümumiyyətlə geniş kütlə faydalanaraq məsələnin elmi təhlilini düzgün aparmaları və problemin həlli imkanına sahib olmaları **problemin praktik əhəmiyyətini** təşkil edir.

**Ədəbiyyat:**

1. Əlizadə, Ə.Ə., İstedadlı uşaqlar: psixopedaqoji məsələlər. -Bakı, 2005.
2. Əliyev, R.İ. Məktəbdə psixoloji xidmətin aktual məsələləri.- Bakı, 2004.
3. Bəylərov, E.B. İstedadlı uşaqlarla təlimin təşkili və məzmunu. -Bakı, 2016.
4. Kemal Ç. Yetenekli çocuklar. - Ankara, 2013.
5. Шумакова, Н.Б. Обучение и развитие одаренных детей. -Москва, 2004.
6. Silverman, L.K. Counseling the gifted and talented. South Bellaire. -Denver. 1993

**E-mail:** solmazhasanli@hotmail.com
**Redaksiyaya daxil olub:** 02.07.2024